İSSN-2221-7584

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti
Азербайджанский Государственный Университет
Культуры и Искусств
Azerbaijan State University of Culture and Art



# MƏDƏNİYYƏT DÜNYASI
# МИР КУЛЬТУРЫ
# THE WORLD OF CULTURE

XXXIII

İSSN – 2221 – 7584

AZƏRBAYCAN DÖVLƏT MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT UNİVERSİTETİ
АЗЕРБАЙДЖАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ КУЛЬТУРЫ И ИСКУССТВ
AZERBAIJAN STATE UNIVERSITY OF CULTURE AND ART




XXXIII

BAKI – 2017

## Redaksiya heyəti

| | |
|---|---|
| *Fərəh Əliyeva* | sənətşünaslıq üzrə elmlər doktoru, professor (sədr) |
| *Vasim Məmmədəliyev* | akademik, AMEA- nın müxbir üzvü |
| *Rivkat Yusupov* | tarix üzrə elmlər doktoru, professor, Rusiya Humanitar Elmlər Akademiyasının müxbir üzvü |
| *Nizami Cəfərov* | filologiya üzrə elmlər doktoru, professor |
| *Kamal Abdulla* | filologiya üzrə elmlər doktoru, professor, AMEA-nın müxbir üzvü |
| *Məryəm Əlizadə* | sənətşünaslıq üzrə elmlər doktoru, professor |
| *Aqşin Babayev* | filologiya üzrə elmlər doktoru, professor |
| *Azər Paşa Nemət* | Xalq artisti, professor |
| *İsrafil İsrafilov* | sənətşünaslıq üzrə elmlər doktoru, professor |
| *İlham Rəhimli* | sənətşünaslıq üzrə elmlər doktoru, professor |
| *Nizaməddin Şəmsizadə* | filologiya üzrə elmlər doktoru, professor |
| *Fərhad Bədəlbəyli* | Xalq artisti, professor |
| *Gülnaz Abdullazadə* | fəlsəfə üzrə elmlər doktoru, professor |

**Baş redaktor**
Məryam Əlizadə — sənətşünaslıq üzrə elmlər doktoru, professor

**Redaktor**
Gülşən Əliyeva-Kəngərli — filologiya üzrə elmlər doktoru, professor

**Məsul katib**
Yeganə Əliyeva — kulturologiya üzrə fəlsəfə doktoru, dosent



**Təsisçi:** **Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**

**Məcmuə ildə iki dəfə çap olunur.**

**İSSN – 2221 – 7584**

**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Elmi Şurasının 11 iyul 2017-ci il, 09 saylı qərarı ilə nəşr olunur.**

**Mədəniyyət dünyası, elmi-nəzəri məcmuə, XXXIII buraxılış,** Bakı, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, 2017, 226 səh.



**Ünvan:AZ – 1065, Azərbaycan Respublikası, Bakı şəhəri, İnşaatçılar prospekti 39**
**Адрес:Азербайджанская Республика, AZ–1065, город Баку, пр. Строителей 39**
**Adress: 39, İnshaatçılar avenue, Baku, Azerbaijan Republic, AZ – 1065**
**Tel: (994 12)438-76-06,**
**Fax: (99412) 438-93-48**
**www.admiu.edu.az**



**©ADMİU, 2017**

**Sahələr üzrə redaksiya komissiyaları:**

- **Kulturologiya ixtisası üzrə**: pedaqogika üzrə fəlsəfə doktoru, dosent Yeganə Eyvazova (sədr), fəlsəfə üzrə elmlər doktoru, professor Niyazi Mehdi, kulturologiya üzrə fəlsəfə doktoru, dosent Sədaqət Əliyeva, fəlsəfə üzrə fəlsəfə doktoru, dosent Tamilla Əhmədova, kulturologiya üzrə fəlsəfə doktoru, dosent Yeganə Əliyeva, sənətşünaslıq üzrə fəlsəfə doktoru Nigar Sultanlı, filologiya üzrə fəlsəfə doktoru Sevinc Əhmədova;

- **Teatr sənəti ixtisası üzrə:** sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor Aydın Talıbzadə (sədr), sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor Rafiq Sadıqov, sənətşünaslıq üzrə fəlsəfə doktoru Rəsmiyyə Mustafayeva, sənətşünaslıq üzrə fəlsəfə doktoru Fəridə Cəlilova, müəllim Elçin Cəfərov;

- **Kino, televiziya və digər ekran sənətləri ixtisası üzrə**: filologiya üzrə elmlər doktoru, professor Aqşin Babayev (sədr), professor Amin Novruzov, filologiya üzrə elmlər doktoru, fəlsəfə üzrə elmlər doktoru, professor Dilarə Mehdi, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Fazilə Abbasova;

- **Təsviri sənət ixtisası üzrə:** sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Afət Aslanova (sədr), sənətşünaslıq üzrə elmlər doktoru, professor Cəmilə Həsənzadə, professor Arif Əzizov, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Bayram Hacızadə, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Mehriban Novruzova;

- **Musiqi sənəti ixtisası üzrə:** sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Kamilə Dadaşzadə (sədr), sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Ellada Hüseynova, sənətşünaslıq üzrə fəlsəfə doktoru Səbinə Mehdiyeva, sənətşünaslıq üzrə fəlsəfə doktoru Cəvahir Mustafayeva, baş müəllim Gülnar Verdiyeva;

- **Fəlsəfə ixtisası üzrə:** fəlsəfə üzrə elmlər doktoru, professor Niyazi Mehdi (sədr), kulturologiya üzrə fəlsəfə doktoru, dosent Xaləddin Sofiyev, fəlsəfə doktoru, dosent Sevinc Şahhüseynova, fəlsəfə doktoru, dosent Tamilla Əhmədova;

- **Psixologiya ixtisası üzrə:** psixologiya üzrə elmlər doktoru, professor Radi Əliyev (sədr), pedaqogika üzrə fəlsəfə doktoru, dosent Zərifə Əliyeva, psixologiya üzrə fəlsəfə doktoru Vasif Muradzadə;

- **İlahiyyat ixtisası üzrə:** akademik Vasim Məmmədəliyev (sədr), fəlsəfə üzrə elmlər doktoru, professor Niyazi Mehdi, kulturologiya üzrə fəlsəfə doktoru, dosent Sədaqət Əliyeva, kulturologiya üzrə fəlsəfə doktoru, dosent Xaləddin Sofiyev

***Jurnal Azərbaycan Respublikası Prezidenti Yanında Ali Attestasiya Komissiyasının Rəyasət Heyətinin 30 aprel 2010-cu il tarixli iclasında (protokol N 10-R) "Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən elmi nəşrlərin siyahısına daxil edilmişdir.***

MƏDƏNİYYƏT DÜNYASI
Elmi-nəzəri məcmuə
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti,
XXXIII buraxılış, Bakı, 2017

МИР КУЛЬТУРЫ
Научно-теоретический сборник
Азербайджанский Государственный Университет Культуры и Искусств,
XXXIII выпуск, Баку, 2017

THE WORLD OF CULTURE
Scientific-theoretical bulletin
Azerbaijan State University of Culture and Art, XXXIII edition, Baku, 2017

# MÜNDƏRİCAT

## KULTUROLOGİYA

***Fərqanə Hüseynova.***
Azərbaycan – Türkiyə əlaqələrinin kulturoloji aspektləri.....6
***Aypara Məmmədova.*** Molla Pənah Vaqif yaradıcılığında
adət - ənənələr və xalq deyimləri.....13
***Gülçin Kazımi.*** Özünəməxsusluq milli mədəniyyətin spesifik xassəsi kimi....20
***Firuzə Raşova.*** Dinlərin təhlilində elmi–metodoloji prinsiplərin tətbiqi.....27
***Cavid Ələkbərli.*** Azərbaycan multikulturalizmi.....33
***Leyla Zeynalova.*** Azərbaycanda dəfn və
yas mərasimlərinin tarixi-kulturoloji aspektləri.....38
***Maşide Memiş.*** İslam mədəniyyətində qadın .....43

## KİNO, TELEVİZİYA VƏ DİGƏR EKRAN SƏNƏTLƏRİ

***Bəhruz Niftəliyev.*** Janrların teleməkanda yeri.....51
***Hüseyn Cavadzadə.*** Televiziyada sosial-siyasi verilişlər.....57

## MUSİQİ SƏNƏTİ

***Aytən Babayeva.*** Azərbaycan bəstəkarlarının operalarında
kütləvi səhnələrin təcəssümündə xorun rolu.....62
***Нурида Исмаил-заде.*** Педагогическая, концертная и композиторская
деятельность в Баку музыкантов России (20-30-е годы XX века).....69

## TƏSVİRİ SƏNƏT

***Bayram Hacızadə.*** 1960-1969-cu illərdə "Kirpi" satirik jurnalında dərc
olunmuş siyasi mövzulu karikaturalar.....74
***Tərlan Mehdiyeva.***
Dünyaya Azərbaycan-Abşeron pəncərəsindən baxan rəssam.....81
***Mehriban Novruzova.*** Təsviri sənətdə bəzi rəng nəzəriyyələrinə dair.....88
***Diləfruz Bağırova.*** Azərbaycanda "qoç" və "at" formalı
qəbirüstü abidələrin bədii xüsusiyyətləri.....95

*Altun Mikayıllı.* Azərbaycan klassiklərinin obrazları Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin portretli xalçalarında.....103
***Elfanə Qasımova, Gülçöhrə Salehzadə*** .
Art-deko üslubu müasir dizaynın ayrılmaz hissəsi kimi.....112
***Həbibə Allahverdiyeva.*** Naxçıvanda səhnəqrafiyanın XX əsrin ikinci yarısından başlayan üslubmüxtəlifliyi.....118
***Fərhad Yüzkec.*** Müasir Türkiyə rəssamlarının yaradıcılığında portret janrının özünəməxsusluğu.....125
**Aygün İsmayıllı.** Qədimlik üzərində yenilikçi rəssam: Elçin Aslanov.....132
***Günay Ağabəyli.*** Azərbaycan rəngkarlığından dünyaya açılan pəncərə – "Abşeron məktəbi".....137
***Səbinə Tutayuk.*** Gülüstan türbəsinin dekor həllində daş oyma üsulundan istifadəsinə dair.....142

## FƏLSƏFƏ

***Əyyub Kərimov.*** İslam həmrəyliyi ümumbəşəri dəyərlər kontekstində.....147
***Müslüm Nəzərov.*** Mədəniyyət və təhsilin qarşılıqlı əlaqələri.....155
***Rəhim Həsənov.*** Klassik avrasiyaçılıq və yeni avrasiyaçılıq ideologiyası.. ...162
***Nailə Şirinova.*** Elmi rasionallığın böhranının sosial-mədəni və ekzistensional şərtləri.....168
***Nuralı Çələbiyev.*** Azərbaycan ailə modeli milli-mənəvi dəyərlər və qloballaşma kontekstində.....174
***Vəsilə Möhsümova.*** Azərbaycanda ölkənin siyasi və iqtisadi idarəetmə strukturlarına qadınların cəlb edilməsi zərurəti.....183
***Adil Sadıxov, Xaliq Dadaşov.*** Sivilizasiya və mədəniyyət şəxsiyyətin fəaliyyətinin məhsuludur.....190
***Mələk Kərimova.*** İncəsənət - cəmiyyətin və şəxsiyyətin inkişafının hərəkətverici qüvvəsi kimi .....197

## PSİXOLOGİYA

***Ərəstun Baxşəliyev, Qəribə Rəhimova, Simnarə Heydərova.***
Humanist psixologiya.....204
***Afət Kamalova.*** Qloballaşmanın milli dəyərlərə təsiri.....215

MƏDƏNİYYƏT DÜNYASI
Elmi-nəzəri məcmuə
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti,
XXXIII buraxılış, Bakı, 2017

МИР КУЛЬТУРЫ
Научно-теоретический сборник
Азербайджанский Государственный Университет Культуры и Искусств,
XXXIII выпуск, Баку, 2017

THE WORLD OF CULTURE
Scientific-theoretical bulletin
Azerbaijan State University of Culture and Art, XXXIII edition, Baku, 2017

UOT 7 (091)

*Tərlan Mehdiyeva*
*Sənətşünaslıq üzrə fəlsəfə doktoru*
*Akdeniz Universiteti*
*Türkiyə, Antalya, Pınarbaşı Mahallesi, Dumlupınar Blv., 07058*
*E-mail:* terlanm@gmail.com

# DÜNYAYA AZƏRBAYCAN-ABŞERON PƏNCƏRƏSİNDƏN BAXAN RƏSSAM

**Xülasə:** Təqdim olunan məqalədə, Azərbaycanda o cümladən Türkiyədə də təsviri sənət yaradıcılığıyla fəaliyyət göstərən, incəsənət xadimi Teymur Rzayevdən bəhs olunur. Burada rəssamın yaradıcılıq xüsusiyyətlərinə dərindən nəzər salınır. Müəllif həm də rəssam T. Rzayevin əsərlərində, içtimai həyatda baş verən hadisələrin, izahlı əksini aşkar edir.

**Açar sözlər:** sənətkar, incəsənət xadimi, fəaliyyət, rəsm sənəti, rəng.

Zəngin və qədim mədəniyyət tarixinə malik olan Azərbaycan xalqı öz mədəniyyətinin hərtərəfli inkişafında və zəngin mənəvi-mədəni irsinin dünya mədəni aləminə çatdırılmasında incəsənət xadimlərimizin rolu çox böyükdür. Bu sahədə Teymur Rəsul oğlu Rzayev müstəsna xidməti olan sənətçilərimizdən biridir. Onun bu sahədəki hər tərəfli fəaliyəti ölkemizin gələcək içtimai-sosial həyatı üçün örnək və milli-mənəvi irsə münasibət baxımından mühüm əhəmiyyətə malikdir.

28 May hər bir Azərbaycan Cumhuriyyətinin əlamətdar bir günüdür. 28 May 1918-ci ildə Orta Şərqdə ilk Demokratik Cumhuriyyət Azərbaycanda qurulmuşdur. Xalqımız bu günü hər il tariximizin ən önəmli günü olaraq bayram edir. PH.DR. keçmiş SSRİ və Azərbaycan Rəssamlar İttifaqının üzvü, Yeditepe Universitetinin (Stanbul) Gözəl Sənətlər Fakultəsi Rəsim Bölümünün Dosenti, Azərbaycanın Əməkdar İncəsənət və Elm Xadimi, Xarici Ölkələrdə Yaşayan Azərbaycanlı Rəssamlar Birliyinin Sədri - Teymur Rəsul oğlu Rzayev üçün 28 May 2013 günü iki qat bayramdır. Çünkü bu tarix həm Azərbaycanda


Demokratik Cumhuriyyətinin quruluşunun 95 illiyi, həm də Rusiya Sənət Akademiyasının Bəyaz salonunda Azərbaycandan ilk sənətçi məhz Teymur Rzayev Rəsul oğlu "Şuvalov" (İvan İvanoviç Şuvalov Rusiya İmperatorluk Sənət Akademiyasının 1757-ci ildə qurucusu və ilk prizidenti olmuşdur.) medalı ilə təltif edilmişdir. Yenə o gün, Bəyaz salonda Türkiyə və Rusiya arasında ilk dəfə mədəni və sənət əlaqələri müqaviləsi imzalandı və bu müqavilənin imzalanmasında bilavasitə, Teymur Rrzayevin əməyi vardır. Eyni zamanda Stanbul Memar Sinan adına Gözəl Sənətlər Universitetindən Pofessor Aydın Ayana da Tükiyədən ilk dəfə "Şuvalov" medalı verildi və Memar Sinan Universitetinin rektoru Pofessor Yalçın Karayağıza Rusya Sənət Akademiyasının fəxri akademiki ünvanı təqdim edildi.



**Şəkil 1.**Mikayıl Abdullayev ilə

Bəli, bu əlamətdar gündə bir-biri ardınca gərçəkləşən hadisələr istedadlı sənətçimiz Teymur Rzayevin yadda qalan xidmətlərinin nəticəsidir. Tükiyədə yaşadığı 25 il ərzində Azərbaycan-Rusiya-Türkiyə arasında mədəni və sənət əlaqələrinin inkişafı üçün əlindən gələni əsirgəməmişdir.

Yaxın Şərqdə ilk operanı (1908) yazan Üzeyir Hacıbəylinin, yenə Yaxın Şərqdə opera yazan ilk (1972) bestekar qadın Şəfiqə Axundovaları bəsləndiyi torpağın övladı, Teymur Rzayaevin bir sənətçi olaraq dünyaya baxışı Abşerondan başlamışdır.



**Şəkil 2.**1985 Ermitaj Muzeyində

Dəyişen dünyanın müsbət və mənfi təzahürləri fonunda milli mənəvi dəyərlərin qorunması, ruhi mədəniyyətin intellekt, hümanizm, insanlıq naminə fəaliyyətə çevrilməsi, mədəni insanın formalaşması çox vacibdir. Ona görə də, hər bir xalqın özünəməxsusluğu nun əsasında onun tarixi keçmişi və milli-mənəvi dəyərləri durur. Bildiyimiz kimi, mədəniyyət ölkələr, xalqlar, nəsillər arasındaki anlaşılmazlığı aradan qaldırır, yüksək sənət nümünələri ruh yüksəkliyi və xoş ovqat yaradır. Hər bir xalqın mədəni inkişafında, onun milli şüurunun formalaşmasında tarixən yaranmış milli-mənəvi dəyərləri mühüm rol oynayır. [1]



**Şəkil 3.**"Fevzi Karakoçun Portreti"50x65 sm, k.ü.y.b. (2011)

Məhz bu sahədəki fəaliyyəti vətənpərvər sənətçimizin mütərəqqi mənəvi dəyərlərimizin

[1] Repin adına Leninqrad Ressamlıq Akademiyası ilə Azerbaycan Ressa 1990 illəri arasında müqaviləyə əsasən hər il yay tətilinde iki ay 15 tələbə Ermitaj müzeyində rəngkarlıq texnikası dersi təcrübəsində Bərpa kafedrası müdürü Prof. Dr. Devyatyov M.M.rəhbərliyi altında orijinal əsərlərdən kopya çalışırdılar. Teymur Rzayev üç il (1985,1986,1987) bu tecrübə dərslərini almışdır.


qorunmasındaki xidməti əvəsizdir. Stanbulda yaşadığı 25 il ərzində saysız mədəni tədbirlərə təşkilatçılıq və himayədarlıq edən Teymur Rzayevin emalatxanası Azərbaycanlı ziyalılarının Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin təbliğinin planlanaraq həyata keçirilməsində qərarların alındığı bir məkana çevrilmişdir. Azərbaycan Sənət Akademiyasının ilk məzunlarından, hətta Akademiyaya ilk sənəd verən abuturiyent, indiyə kimi müraciət qəbzini (qəbz No 1) saxlayan sənətçi hələ tələbəlik illərində bayırdan üç, içəridən isə dörd mərtəbəsi olan özəl bir emalatxana tikdirmişdir.



Şəkil 4. "Şəhriyarın Portreti" 65x50 sm., k.ü.y.b. 2004


Məhsuldar yaradıcılığının sonsuz pillələr ilə inkişaf edən sənətkarın yaradıcılığının son illərində yaratdığı əsərlərindəki mövzu və texnika müxtəlifliyi ilə daha da diqqətləri üzərinə çəkməkdədir. Teymur Rzayev, hər sənət işi ilə izləyicisini fərqli zamana apara bilən sənətkarlardandır. Əgər bir əsəri bizə Victor Vasrellini xatırladırsa, digər bir əsəri isə bizi Renesansa aparır. T.Rzayev portret və natürmort ənənələrini kətan üstünə yağlı boya texnikası ilə son dərəcə müvəfəqiyyətlə əks etdirir. Sənətkar müxtəlif mövzulu əsərlərində qəlb döyüntü-lərində xoşbəxtliyin rəsmini çəkməyə müvəffəq olur.

Fotorealist əsərlərindən yüksələn kamanın yanıqlı ritmini, rənglərlə iç-içə keçmiş mücərrədliyi duymasaq da, lakin muğamın elementlərini hiss edirik. Bu tərz əsərlərində ritmik dərinlik və estetik qurğu fərqli bir aləmə aparır izləyicisini.



Şəkil 5. "Yansımalar", 75x80 sm k.ü.y.b.(2009)

"Güllər" 100x50 cm) adlı əsərindəki qüsursuz qurğuya heyran olmamaq mümkün deyil. Qurğudakı həndəsi biçimlərin qüsursuzluğu, əsərlərdəki memari hörgünün vacibliyini göz önünə çəkir. Sirli-soraqlı rənglər dərəcə-dərəcə açılıb tündləşdikçə rəsimlərdəki şeiriyyat öne çıxır. Bu sirli-soraqlı həndəsi formalarda düşüncələr hərflərə, hecalara, sözlərə parçalanmışdır. Bunlar bir bütünün parçalarıdır və bu parçalar da təkrardan bütünü yaratmaq üçün zəruridir. Teymurun özünə xas tərziylə yaratdığı hərəkətli, fərqli forma və biçimlər, plastik bir düşüncənin nəticəsid...




**Şəkil 6.**"Neft Daşları" k.ü.y.b., 160x140 sm (2013)

Bu gün cəmiyyətin yeniləşdirilməsi, qloballaşma dalğasında vətəndaş və mənlik şüurunun yüksəlişi daha da güclənir. Bu çərçivədə özəlliklə xaricdə yaşayan sənətkarlarımızın yaradıcılığında qədim milli qaynaqlarımıza müraciət etmə meyilləri getdikcə artmaqdadır. Elə bunun nəticəsidir ki, son illərdə xarici ölkələrdə fəaliyyət göstərən Azərbaycan sənətçilərinin maraqlı,


özünəməxsus əsərlərinə maraq artmışdır. Zəngin rəng palitrası, bitkin kompozisya quruluşuna malik, milli koloritin qabarıq şəkildə bədii ifadəsinə malik əsərlərin müəllifi Teymur Rzayevin əsərlərindəki vətən sevgisi, Azərbaycan sevgisi, dil sevgisi, milli mədəniyyət sevgisi xüsusi yer tutur.

Teymur Rzayev iki fərqli yüz ilin, ilk baxışda fərqli görünən iki mədəniyyət və incəsənətdən qidalanan sənətçidir. Təməlinə endiyimizdə isə, eyni kökden bəslənən, eyni olan sadəcə zamanla zorla özümüzdən qoparılmağa çalışılan bir millətin nümayəndəsiyik. Ona görə də 25 ildir İstanbulda fəaliyyəti ərzində müəllimliklə yanaşı, sayısız qarışıq və fərdi sərgilərdə iştirak edən rəssam bu ölkədə, bu cəmiyyətdə heç bir zaman özünü qərib hiss etmədi. Emalatxanasında tələbə də hazırlayan rəssam, konkret peşə sahiblerinin, çevrəsindəki insanların portretlərini böyük ustalıqla fırçaya alır. Bildiyimiz kimi bir rəssamın öz sahəsində püxtələşməsi və formalaşmasında portret janrının çox böyük əhəmiyyəti və həlledici rolu var. Bəli, rəssamın portret qalereyası ilə yaxından tanış olduqda onun fırçasından doğan obrazlara heyran olmamaq mümkün deyil. Bu obrazlardakı yüksək bədii təfəkkür, məntiqi idrak, əhatəli ümumiləşdirmə insanı içinə alır. T.Rzayevin portret çalışmalarındakı akademik bitkinliklə yanaşı qeyri adi ritmi, ahəngi, improvizasiya elementləri və əsas da bu gördüyümüz insanların xarakterik xüsusiyyətlərini, yəni bədənləri qədər də ruhlarını özündə daxil edərək əks etdirməsidir.



**Şəkil 7.** Sarı Çiçəklər. 90x90 sm, k.ü.y.b. (2009)


Qardaş Türkiyədə, İstanbul və Ankarada baş vermiş 15 iyul 2016 hadisələrində hakimiyyəti devirmək cəhdinə sənətçi təbii ki biganə qalmadı. Küçələrə tankların yeridilməsi, ölkənin hava limanlarına, nəqliyyat ötürücülərinə müdaxilə, TRT telekanalına, bəzi medya mərkəzlərinə əl qoymalara, İstanbulda yaşadığı üçün bilavasitə şahid olduğu sarsıdıcı bir təsiri son aylarda işlədiyi əsərlərdə öz təsirini biruzə verməkdədir. O gecə prezident Rəcəp Tayyib Ərdoğanın xalqa səslənməsi (milli iradə çağrısı), eyni anda bütün şəhər və qəsəbələrdə əzan oxunması ilə xalqın gecənin qaranlığında küçələrə axını başladı. Dövlət çevrilişinə cəhd edən xainlər küçələrə çıxmış xalqa, tankların önünə barikad quran kamyonçulara atəş açdılar. Bu faciədə Türkiyə 248 şəhid verdi, amma buna rəğmən dövlət çevrilişinə cəhd edən terrorçular Türkiyə xalqının sərt müqaviməti ilə üzləşdilər. Meydanlara axın edən xalq vətən-sevərliyini nümayiş etdirdi, siyasi partiyalar da dövlətin yanında olduğunu göstərdi.



**Şəkil 8.**"15 İyul 2016" k. ü.qarışıq texnika. 213x213cm 2016


Hər zaman olduğu kimi, 15 iyul hadisələri zamanı da Azərbaycan qardaş

Türk xalqının yanında oldu. İstər Türkiyədə, istərsə də Azərbaycanda bir çox sənətçi əsərləri, layihələri ilə bu mövzüya müraciət edərək qardaş türk xalqı ilə həmrəy olduqlarını nümayiş etdirdilər. Rəssam Teymur Rzayev də "15 İyul 2016" isimli əsəri (Şəkil 6) ilə hadisələrə münasibət bildirən sənətçilərimiz arasındadır. 15 iyul gecəsi dastan yazan türk xalqının milli iradəsini kətan üzərinə qarışıq texnikada (yağlı və akril boya) işlədiyi əsərdə, hadisənin başladığı iki qitəni birləşdirən, daha sonra "15 İyul Şəhidlər Körpüsü" adlandırılan Bosfor boğazını ələ almışdır. Tabloda iki kətanın birləşməsi ilə sekkiz güşəli ulduz görüntüsü ortaya çıxmışdır. Türk toplumlarında səkkiz güşəli ulduz simvolunun tarixi eramızdan əvvəl beş min illərə qədər, türk köklü şumerlərin orta Asyadan və Xəzər dənizi sahillərindən köç etdikləri dövürə qədər uzanır. Daha yaxın tarixə nəzər salsaq səkkiz türk tayfalarının adı ilə bağlılığı, Səlcuq turklərinin rəmzi olan səkkiz güşəli ulduz simvolunu bu gün Azərbaycan bayrağı da rəmzi olaraq yaşatmaqdadır. Rəssam bu əsərində keçmişimizdən doğan simvolu bir daha günümüzə ötürərək tariximizə sahib çıxmağa hatırladır.



**Şəkil 8**/dən fraqment

Yuxarıdan aşağı doğru rəsmi ikiyə bölen tünd mavi, eyni zamanda da Bosfor boğazının gecə rəngidir və bu rəng boğazı təmsil etmək məqsədi ilə seçilmişdir. Rəsmə öndən baxıldığında sağ və sol tərəflərdə yer alan rənglər, torpağın gecə rəngini göstərir. Sol tərəf sağ tərəfə görə daha az sahəni ahatə edir. Sol tərəf Avropa yaxasını (fiziki olaraq daha az sahədir), sağ tərəf isə Anadolu yaxasını rəmzi olaraq ifadə edir. Aralardakı üçbucaqlı boşluqlar da diqqətdən qaçmır, burada sənətçi bu boşluqlarla, boşluğun da bir varlıq olduğu fəlsəfi anlayışdan çıxış edərək, zamanla bu boşluqların da insanla dolacağı anlamını verir. Elə də oldu tam 27 gün yaşlısı, əliliylə türk xalqı gecə, gündüz meydanları doldurdu və bütün dünyaya birlik mesajı verdi.



**Şəkil 8**/dən fraqment



**Şəkil 11.** Zurab Tseretelinin "Paletin Ürəği" adlı sərgisindən 2015 (soldan Dosent Dr. Teymur Rzayev, MSGSÜ'nun rektoru Prof. Dr. Yalçın Karayağız, Zurab Tseretelli.

Sol və sağ kəlməsi Türkiyənin bu gün güçlü iqtidar və müxalifət olaraq iki ana partiyasının rəmzi olaraq da əsərə daxil edilmişdir. Rəsimdə olayların təşəkkül etdiyi zirvə nöqtə, boğaz körpüsü üzerində xalq sağı və solu ilə bütünləşərək keçmişimizdən gələn

bir səkkiz güşəli ulduz simvolunda, bir kök üzerində birləşməsi təmsil edilmişdir. İqtidar və müxalifət, ölkə və milli iradə bütünlüyü üçün birləşmişdir. Əsərdə koloritin müxtelifliyi, toplumun birlikdə, hər rəngdən (yaşlı, gənc, uşaq) insanı temsil edir. Rənglerin daha canlı, təsirli olması və qızıl ürəkli insanları, igidləri vurğulamaq üçün heqiqi qızıl rəngdən istifadə edilmişdir.

Son illərdəki fəaliyətləri içərisində çox sayıda master klass proqramlarına, beynəlxalq simpoziumlarda iştirak edən rəssam, müxtəlif layihələr üzərində də çalışmaqdadır; 2015 tarixli "Nizami Gəncəvi Layihəsi"ndə Nizami Gəncəvinin dünya təhsil proqramlarına alınması məsələsi (2015), Çanaqqala Savaşında şəhid olan Azərbaycanlıların xatirəsinə Məzar Abidesi ucaldılması (2015) layihələrini misal göstere bilərik. 2015 iyul ayında MSGSÜ (Memar Sinan Gözəl Sənətlər Universiteti) Tophane-i Amire Kültür Sənət Mərkəzi'ndə təşkil olunmuş Rusiya Sənət Akademiyasının prezidenti Zurab Tseretelinin "Paletin Ürəği" adlı möhtəşəm fərdi sərgisi Teymur Rzayevin kuratorluğu və kordinatorluğunda həyata keçirilmişdir. Bu sərgi eyni zamanda Türkiyə və Rusiya arasında bundan sonra qarşılıqlı olaraq keçiriləcək tədbirlərin başlanğıcı oldu. İki ölkə arasında bədii əlaqələrin gərçəkləşməsində ilk körpünü də məhz Teymur Rzayev qurmuşdur. Beləliklə, Türkiyə tarixində ilk dəfə çağdaş rus sənətkarının fərdi sərgisi açılmış oldu.

Türkiyədə çalışdığı 25 il ərzində müxtəlif mövzulara müraciət edən rəssam, vətəni, doğma yurdu Abşeronu hər zaman yaradıcılığında ön planda tutmuşdur. Abşeron silsiləsindən "Abşeron Motifləri", "Paradoksun Zəfəri" vs. Əsərlərini misal gətirə bilərik. Çağdaş Azərbaycan rəsm sənətinin önəmli nümayəndələrindən içtimai və incəsənət xadimi Teymur Rzayevin yaradıcılığını incələmək həm asan, həm də çətindir. Asandır, ona görə ki, mükəmmel klassik biliyə sahib sənətçilərin klassik əsərlərini analiz etmək, yozumlamaq nisbətən asandır. Çətindir, çünki Teymurun əsərlərini, ümumiyyətlə araşdırdıqca eyni illərdə yaranmış müxtəlif tərzlərdəki tablolar fikir tarazlığını pozur. Yaradıcılığının ən məhsuldar dönəmlərindəki əsərlərində belə, fotorealizmdən kəskin surətdə mücərrədə olan cıdırl görürük. Bu gedib-gəlmələr hər dönəmdə qarşımıza çıxır.

Teymur Rzayev yaradıcılığına kiçik baxışdan önə çıxan üç sözün; tebiət-emalatxana-düşüncənin arxasında qocaman sirli bir dağ var!

Düşünürəm ki, Teymur Rəsul oğlu Rzayevin həm içtimai, həm də yaradıcılıq fəaliyyəti haqqında tədqiqatlar aparılmalı və necə-neçə yazılar yazılmalıdır. Çünki müasir texnogen bəşəriyyətdə Teymurun yaradıcı və içtimai fəaliyyəti həm milli, regional və qlobal miqyasda güçlü birləşdirici faktor kimi çıxış edir.

**Тарлан Мехдиева**

**«Душой привязан к Апшерону» – взгляд азербайджанского художника на мир**

**Резюме**

В представленной статье описывается творчество общетсвенного деятеля искусств Теймура Рзаева, который в разные периоды жизни творил не только на родине, но и в соседней Турции. Автор статьи глубоко анализирует переживания художника на происходящие в мире события,

который мастерски с помощью кисти перенес на свои полотна.

**Ключевые слова:** мастер, общественный деятель, деятельность, изобразительное искусство, цвета.

**Tarlan Mekhdiyeva**

**"Soul is attached to Absheron" - the Azerbaijani artist's view of the world.**

**Summary**

The presented article describes the work of the general artist of art Teymur Rzayev, who worked in different periods of his life not only in his homeland, but also in neighboring Turkey. The author of the article deeply analyzes the artist's experiences on the events taking place in the world, which he skillfully transferred with his brush to his canvases.

**Keywords:** master, public figure, activity, visual arts, colors.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 11.05.2017**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 18.05.2017**
**Məqalənin çapa qəbul olunma tarixi: 08.06.2017**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Mehriban Novruzova**
**ADMİU-nun Elmi Şurasının 11 iyul 2017-ci il, 09 saylı qərarı ilə çap olunur.**